

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 97 (21.249)

16 may 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Mayın 15-də Bakıda "Bulvar Hotel" istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, bu, "Absheron Hotel Group"a daxil olan dördüncü oteldir. Bakı buxtasında yerləşən beşulduzlu "Bulvar Hotel" yüksək səviyyədə və müasir üslubda inşa olunub. Otelin paytaxtın əsas işgüzar və mədəni mərkəzlərinə yaxın olması qonaqlara vaxtlarını daha səmərəli keçirmək üçün hərtərəfli imkanlar yaradır.

Otellə tanışlıqdan sonra Prezident İlham Əliyev kollektivlə görüşdü.

* * *

Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Ağ Şəhər bulvarında yaradılan şəraitlə tanış olublar.

* * *

Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakının Nobel qardaşları prospektinə paralel inşa olunmuş dənizkənarı yeni yolun açılışında iştirak ediblər.

## Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilmişdir









Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 12-dən etibarən Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin birgə taktiki təlimləri başlanmışdır.

Mayın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar birgə taktiki təlimi izləmişlər.

Təlimdə 1000-dən artıq şəxsi heyət, 150-dən artıq döyüş və digər texnika, 50-yə yaxın artilleriya və reaktiv qurğu, 4 atəş dəstək vertolyotu, 6 ədəd zenit-raket qurğusu iştirak etmişdir. Təlimlərin keçirilməsində əsas məqsəd Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirməklə koordinasiyanı inkişaf etdirmək, bölmələrin hazırlığı və əməliyyatları icraetmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Üç mərhələdə keçirilən təlimlərdə bölmələr tərəfindən qarşılıqlı uzlaşma şəraitində müxtəlif döyüş tapşırıqları praktiki şəkildə icra olunmuşdur. Təlimdə birgə əks-hücum əməliyyatlarının təşkili və aparılması, zirehli qrupların düşmənin müdafiə xəttini yarmaqla təyin olunmuş istiqamətdə əlverişli həddi ələ keçirməsi, taktiki-hava desantının düşmən bölmələrinin arxasına atılması və hakim yüksəkliklərin ələ keçirilməsi, hücumda olan qoşunların dəstəyi üzrə hava hücumundan müdafiə qoşunlarının qarşılıqlı fəaliyyətinin öyrənilməsi mövzularında tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilmişdir.

Motoatıcı və tank bölmələri, raket və artilleriya qurğuları, zenit-raket kompleksləri və vertolyotlar döyüş atışları və raket buraxılışlarını həyata keçirmişlər.

Təlim ssenarisinə əsasən, hava hücumundan müdafiə bölmələri zenit-raket kompleks vasitələri ilə dövlət sərhədini pozan düşmən təyyarələrini məhv etmişdir. Hərbi birləşmələrimiz yaylım atəşli reaktiv silahlar vasitəsilə hücuma keçən düşmənin idarəetmə məntəqələrini, canlı qüvvəsini, döyüş texnikalarını, artilleriya və minaatan batareyalarını zərərsizləşdirmiş, dayaq məntəqələrini və qovşaqlarını dağıtmışdır. Sonra atəş dəstək və döyüş-nəqliyyat vertolyotlarının müşayiəti ilə düşmən müdafiəsinin yaxın dərinlikdəki zirehli obyektlərinə zərbələr endirilmiş və düşmən üzərində atəş üstünlüyü əldə edilmişdir.

Təmas xətti boyu mövqelərini gücləndirən və atəş üstünlüyünə yiyələnən Əlahiddə Ümumqoşun Ordusu bundan sonra düşmənə qarşı əks-hücum əmrini yerinə yetirmişdir. Əvvəlcə özüyeriyən artilleriya qurğuları, müxtəlif çaplı toplar və minaatanlardan açılan atəşlə düşmənin canlı qüvvəsi məhv edilmişdir. Ardınca tanklar, piyada döyüş maşınları, tank əleyhinə idarə olunan raket kompleksləri hücuma dəstək verərək düşmən müdafiəsinin ön xəttindəki atəş vasitələrinə zərbələr endirmişlər. Bu zaman qarşı tərəfin müdafiə istehkamları və digər səhra qurğuları dağıdılmış, hərəkətdə olan və hərəkətsiz zirehli texnikalar yararsız hala salınmışdır. Əks-hücum əməliyyatına atəş-dəstək vertolyotları da qoşularaq düşmənin müdafiə dərinliyində aşkarlanmış canlı qüvvəsini və zirehli obyektlərini atəşə tutmuşdur.

Daha sonra Əlahiddə Ümumqoşun Ordusunun birləşmələri Türkiyə Respublikası Silahlı Qüvvələrinin gücləndirilmiş tabor taktiki qrupları ilə birlikdə düşmən müdafiəsinin ön xəttini yarmış, piyada döyüş maşınları və tanklar dərinliklərə nüfuz etmişlər. Artilleriya bölmələri atəş mövqeyini dəyişməklə hücum edən bölmələrə dəstək vermiş, Əlahiddə Ümumqoşun Ordusunun ön dəstələri sürətli hücum təşkil edərək qarşı tərəfin mühüm rayonlarını və həddini ələ keçirmişlər. Hərbi təlimdə səyyar tibb və təmir təxliyə qrupları da fəallıq nümayiş etdirmişlər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun birləşmələri və Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirmiş, birgə hərbi təlim müvəffəqiyyətlə başa çatmışdır.

Sonda hərbi vertolyotlar Azərbaycan və Türkiyə bayraqlarını səmada nümayiş etdirmiş, ümummilli lider Heydər Əliyevin ***"Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"*** fikirləri səsləndirilmişdir.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev təlimin başa çatması barədə

Ardı 2-ci səhifədə





raport verdikdən sonra təlimdə iştirak edən şəxsi heyətlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qardaş Türkiyə Silahlı Qüvvələrinin nümayəndələrini, əsgər





və zabitləri, eləcə də tədbir iştirakçılarını Azərbaycan-Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərinin uğurla başa çatması münasibətilə təbrik edərək demişdir: “Bu təlimlər müstəqil ölkələrimizin iqtisadi və hərbi qüdrətinin göstəricisidir. 20-ci yüzilliyin əvvəlində böyük Mustafa Kamal Atatürk türk ordusunu yaratmaqla qardaş Türkiyəni xilas etdi. Həmin əsrin sonunda müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyev də milli ordumuzu yaratmaqla Azərbaycanı parçalanmaqdan xilas etdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu sahəsində başladığı taleyüklü işlərin və vəzifələrin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində bu gün Azərbaycan Ordusu müstəqilliyimizin təminatçısıdır. Silahlı Qüvvələrimizin Naxçıvan Muxtar Respublikası ərazisindəki birləşmə və hissələri də böyük təşkilatlanma yolu keçmişlər. Naxçıvandakı motoatıcı briqada quruculuq tədbirləri nəticəsində peşəkar hərbi heyətə və güclü maddi-texniki bazaya malik Əlahiddə Ümumqoşun Ordusu səviyyəsinə gəlib çatmışdır”.

Ali Məclisin Sədri işğalçı erməni ordusu ilə üz-üzə dayanan Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrin yeni standartlar əsasında formalaşdırılmasında Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin təmənnasız köməyini xüsusi qeyd etmiş, qardaş Türkiyə dövlətinə və Silahlı Qüvvələrinə dərin hörmət və ehtiramını bildirərək demişdir: “Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev əlaqələrimizin strateji əhəmiyyətini qiymətləndirərək demişdir: ***“Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür”.*** Bu gün bu güc, bu birlik böyük Atatürkün vaxtı ilə “türkün qapısı” adlandırdığı Naxçıvanda özünü bütün əzəməti ilə bir daha göstərdi. Azərbaycan-Türkiyə birgə hərbi təlimləri bir tərəfdən ölkələrimiz arasında imzalanmış strateji tərəfdaşlığın, qardaşlığın göstəricisidirsə, digər tərəfdən ümummilli lider Heydər Əliyevin kəlamları ilə desək – ***iki dövlətin bir millətin*** bir ordusunun birliyinin nümunəsidir. Keçirilən birgə hərbi təlim bir daha göstərdi ki, o ordu güclü deyil ki, onun silah-sursatı və hərbi texnikası var. O ordu güclüdür ki, onun əsgər və zabitində döyüş ruhu güclüdür, vətənpərvərdir. Bugünkü təlimlər yüksək əsgəri ruhun, peşəkarlığın və vətənpərvərliyin ifadəsinə çevrildi”.

Ali Məclisin Sədri hərbi təlimdə iştirak edənləri uğurlu nəticə münasibətilə bir daha təbrik etmiş, təlimlərdə birgə iştiraka və tərəfdaşlığa görə təşəkkürünü bildirmiş və çıxışını ***“Yaşasın Azərbaycan-Türkiyə dostluğu!”*** ifadələri ilə tamamlamışdır.

Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov çıxış edərək demişdir ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikasının da müdafiə potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilir. Hazırda Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu yüksək döyüş qabiliyyətinə malikdir. Bugünkü birgə təlimlər bir daha sübut etdi ki, Naxçıvandakı hərbi birləşmələrin döyüş hazırlığı yüksək səviyyədədir və şəxsi heyət istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Zakir Həsənov təlimdə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiklərinə görə şəxsi heyəti təbrik etmiş, onlara gələcək xidmətlərində uğurlar arzulamışdır.

Tədbirdə çıxış edən Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar demişdir ki, birgə hərbi təlimlərin uğurla yerinə yetirilməsi dost və qardaş ölkələr olan Azərbaycan və Türkiyənin Silahlı Qüvvələrinin güc birliyinin göstəricisidir. Təlimləri izləyərkən bir daha əmin olduq ki, istər Azərbaycan Respublikasının, istərsə də Türkiyə Respublikasının Silahlı Qüvvələrinin bugünkü döyüş hazırlığı yüksək səviyyədədir. Hər iki Silahlı Qüvvələrin şəxsi heyəti verilən döyüş tapşırıqlarını peşəkarlıqla yerinə yetirməklə eyni zamanda iki ordu arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu nümayiş etdirdilər. Ümit Dündar birgə hərbi təlimlərin təşkilində və yerinə yetirilməsində əməyi olanlara minnətdarlıq etmiş, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Azərbaycan Respublikası Silahlı Qüvvələri ilə əməkdaşlığını bundan sonra da davam etdirəcəyini bildirmişdir.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar hərbi təlimdə iştirak edən şəxsi heyətlə xatirə şəkli çəkdirmişlər.

## Naxçıvan şəhərindəki hərbi hissədə yeni qərargah binası və əsgər yataqxanası istifadəyə verilmişdir






Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir”.***

Bu gün Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, maddi-texniki təchizatı və şəxsi heyətin xidməti şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, Naxçıvan şəhərində yerləşən hərbi hissə üçün yeni qərargah binası və əsgər yataqxanası inşa edilmişdir.

Mayın 15-də qərargah binasının və əsgər yataqxanasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar qərargah binasının açılışını bildirən lenti kəsmişlər.

*Ardı 3-cü səhifədə*

Məlumat verilmişdir ki, yeni qərargah binası 4 mərtəbədən ibarətdir. Binada müasir xidmət otaqları, taktiki təlim sinfi və istirahət guşəsi vardır. Yeni qərargah binası müasir idarəetmə prinsiplərinə uyğun qurulmuşdur. Burada zabitlərin xidmət şəraitinin yüksəldilməsi üçün bütün imkanlar mövcuddur. Xidmət otaqları bütün lazımi avadanlıqlarla təmin edilmiş, kompüterlər quraşdırılmışdır. Taktiki təlim sinfində proyektor və digər müasir təlim avadanlıqları qoyulmuşdur.

Binanın foyesində ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan Ordusu haqqında söylədiyi fikirlərdən və ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin əks olunduğu fotoşəkillərdən ibarət guşələr yaradılmışdır.

Bina ilə tanışlıqdan sonra yeni əsgər yataqxanasının da açılışı olmuşdur.

Bildirilmişdir ki, 3 mərtəbədən ibarət olan



əsgər yataqxanası 900 yerlikdir. Burada yataq otaqları, məişət guşələri, istirahət otaqları, ideoloji, silah və zabitlər üçün xidməti otaqlar vardır. Yataqxanada əsgərlər üçün müasir sosial-məişət şəraiti yaradılmışdır. Yataq otaqları keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla təchiz olunmuşdur. “Xidmət etdiyim diyar” guşəsində muxtar respublikanın tarixi və təbiət abidələrinin, quruculuq ünvanlarının fotoşəkilləri yerləşdirilmişdir.

Yüksək şəraiti olan əsgər yataqxanasının istirahət və təlim otaqları da müasir tələblərə cavab verir. Binada əsgərlərin asudə vaxtının səmərəli təşkili nəzərə alınmış, ideoloji otaqda ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən kitablar, bədii ədəbiyyatlar, məlumat stendləri, qəzet və jurnallar qoyulmuşdur.

Hər iki binanın həyətində də geniş abadlıq işləri aparılmış, mini-futbol və voleybol meydançaları istifadəyə verilmişdir.





## Əlahiddə Ümumqoşun Ordusuna xidməti avtomobillər və yük maşınları təqdim olunmuşdur





Həmin gün Naxçıvan Əlahiddə Ümumqoşun Ordusuna yeni xidməti avtomobillər və yük maşınları təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov yeni xidməti avtomobillərə və yük maşınlarına, eləcə də Əlahiddə Ümumqoşun Ordusunun digər döyüş texnikalarına baxmışlar.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissə və bölmələrinə 10 ədəd yeni “NAZ-Lifan” markalı xidməti avtomobil və 20 ədəd “Kamaz” markalı yük maşınları verilmiş, maddi-texniki baza daha da möhkəmləndirilmişdir.

Hazırda hərbi hissələrin bazasında ən müasir döyüş texnikaları və müxtəlif təyinatlı avtomobillər vardır. Atəş idarəetmə maşınları, yüksək hündürlükdə meteoroloji şəraiti ölçmə sistemi, təxliyə avtomobilləri, ultrasəs və exokardioqrafiya aparatı ilə təmin olunmuş tibb qoşquları, zabit və rəis heyətinin səhra şəraitində iş və istirahətinin təşkili üçün nəzərdə tutulan qoşqu və avtomobillər döyüş zamanı şəxsi heyətin fəaliyyətinin düzgün təşkilinə imkan verir.

Nümayiş etdirilən müasir yaylım atəşli reaktiv sistemlər, tanklar, zirehli döyüş maşınları, artilleriya qurğuları, müxtəlif çaplı silahlar istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə imkan verir. Səhra şəraitində istifadə olunan müasir texniki vasitələr də ən yüksək tələblər səviyyəsindədir. Səyyar texniki-təmir emalatxanaları çətin təbii xidmət şəraitində geniş imkanlara malikdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Türkiyənin Qars şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü qeyd edilmişdir

***Mayın 5-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Türkiyənin Ərzurum Atatürk Universitetində “Azərbaycan-Türkiyə münasibətlərində Heydər Əliyevin rolu” adlı konfrans keçirilmişdir.***

Azərbaycan Respublikasının Qars şəhərindəki Baş konsulu Ayxan Süleymanlı, universitetin prorektoru, professor Mehmet Sadi Çögenli, Türkiyyat Araşdırmaları İnstitutunun müdiri, professor Çingiz Alyılmaz, universitetin professorları Yavuz Aslan və Sedat Adıgözəl, Azərbaycanın Türkiyədəki təhsil müşaviri Nəcibə Nəsibova çıxış edərək ulu öndərin Azərbaycanın dövlət müstəqilliyinin qorunması və inkişafı sahəsindəki xidmətlərindən danışmış, dost və qardaş ölkə olan Türkiyə Respublikası ilə əlaqələrin inkişafı istiqamətində gördüyü işləri diqqətə çatdırmışlar.

Sonra Atatürk Universitetinin Dil, ədəbiyyat fakültəsinin tələbələri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilən inşa-yazı müsabiqəsinin qalibləri mükafatlandırılmışdır.

Mayın 9-da isə Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə bağlı tədbir keçirilmişdir.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Qars şəhərindəki abidəsi önünə gül dəstələri qoymuşlar.

Tədbirdə Azərbaycan Respublikasının Qars şəhərindəki Baş konsulu Ayxan Süleymanlı ulu öndərin dövlətimiz və xalqımız qarşısındakı tarixi xidmətlərindən ətraflı bəhs edərək demişdir ki, bu gün Azərbaycan Respublikasının müstəqil dövlət kimi tanınması, ölkəmizin iqtisadiyyatının gündən-günə güclənməsi və siyasi arenada yüksək imicə malik olması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi rəhbərin təşəbbüsü ilə Türkiyə və Azərbaycan arasında möhkəmlənən qardaşlıq və dostluq münasibətləri hazırda uğurla inkişaf etdirilir.

Mərasimdə Qars Qafqaz Universitetinin professorları Hacıəli Nəcəfoğlu və Xurşud İsayev çıxış edərək ulu öndər Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən bəhs etmişlər.

Türkiyənin İqdır şəhərində də ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü qeyd edilmişdir.

Mayın 10-da Türkiyə-Azərbaycan Dərnəyinin İqdır şöbəsi və İqdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin üzvləri şəhərin mərkəzindəki Heydər Əliyev Parkında ulu öndərin əzəmətlə ucalan abidəsini ziyarət etmiş, dahi rəhbərin xatirəsinə dərin ehtiramlarını ifadə etmişlər.

**“Şərq qapısı”**

# Beynəlxalq Ailə Günü qeyd edilib

*Mayın 15-də Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan şəhərindəki "Təbriz" mehmanxanasında tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış ediblər.

Çıxışlarda bildirilib ki, muxtar respublikamızda dövlət ailə siyasəti uğurla həyata keçirilir. Bu sahədə mühüm işlər görülür, aparılan sosial siyasət ailələrin maddi və mənəvi tələbatlarının ödənilməsinə, həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir. Bu gün Naxçıvan Muxtar Respublikasında 94 minə yaxın ailə yaşayır. Bütün kateqoriyalardan olan ailələr hərtərəfli diqqət və qayğı ilə əhatə olunublar. Muxtar respublikada yaşayan aztəminatlı ailələr, o cümlədən qaçqın və məcburi köçkün ailələri, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş və ya şəhid olmuş vətəndaşların ailələri, eləcə də aztəminatlı ailələr kateqoriyasından 500-ə yaxın ailə mənzillə təmin edilib, onların sosial müdafiəsi gücləndirilib. Gənc ailələrin də mənzillə təminatı üçün yeni binalar salınır, ipoteka yolu ilə gənclərə verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" ailələrin sosial rifahının yaxşılaşdırılmasında, işaxtaranların məşğulluğunun təmin edilməsində mühüm əhəmiyyət daşıyır.



Qeyd olunub ki, muxtar respublikada uzunömürlü ailələrin yubileylərinin qeyd edilməsi artıq bir ənənəyə çevrilib. Hər il uzunömürlü ailələrin "gümüş", "qızıl", "brilyant", "firavanlıq", "ənənəvi " toyları qeyd olunur, ailə üzvlərinə qiymətli hədiyyələr verilir.

Tədbirdə uzunömürlü, gənc və hərbçi ailələrin üzvləri çıxış edərək muxtar respublikada ailələrin rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Beynəlxalq Ailə Günü münasibətilə ailələrə hədiyyələr təqdim olunub.

Sonra Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri və gənclər arasında keçirilən "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda II muxtar respublika yazı və rəsm müsabiqələrinin qalibləri mükafatlandırılıblar.

Tədbirdə Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin "Şəlalə" instrumental ansamblının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs qrupunun, nümunəvi musiqiçi ailələrin üzvlərinin və Naxçıvan şəhərindəki 11 nömrəli uşaq bağçası fidanlarının ifa və çıxışları alqışlarla qarşılanıb.

**Sara ƏZİMOVA**

*18 may Beynəlxalq Muzeylər Günüdür*

# Muzeylər xalqımızın maddi-mənəvi sərvətlər xəzinəsidir

***YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının qərarına əsasən, 1978-ci ildən başlayaraq hər il mayın 18-i "Beynəlxalq Muzeylər Günü" kimi qeyd edilir.***

Naxçıvan Muxtar Respublikasında muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində mühüm işlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində muxtar respublikamızda yeni muzeylər yaradılmış, fəaliyyətdə olan muzeylər müasir tələblər əsasında qurulmuş və yeni eksponatlarla zənginləşdirilmişdir. Əgər 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey fəaliyyət göstərirdisə, hazırda bu qədim diyarda 25 müxtəlifprofilli muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir. 2012-ci ildə Bəhruz Kəngərli Muzeyi əsaslı şəkildə yenidən qurulmuş, 2013-cü ildə "Gəmiqaya" Tarix-Bədii Qoruğu və muzeyi üçün bina istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" 2013-cü il 5 iyun tarixli Sərəncamına əsasən, muxtar respublika paytaxtında daha bir muzey yaradılmışdır. 2014-cü ildə Şahbuz rayonundakı Nursu kəndində Xalq şairi Məmməd Arazın ev-muzeyi, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi istifadəyə verilmişdir. 2015-ci ildə isə Naxçıvan şəhərində Xatirə Muzeyi, Şərur rayonundakı Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin yeni binaları qapılarını tamaşaçıların üzünə açmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında", 2014-cü il 17 sentyabr tarixli "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında" sərəncamları göstərir ki, bu sahədə işlər davamlı və ardıcıl olaraq həyata keçirilir və muzey şəbəkələri genişləndirilir.

Qədim diyarımızın zəngin tarixini, mədəniyyətini, tarixi inkişaf yolunu əks etdirən muzeylər mədəni irsimizin qorunması və təbliğində, gənc nəslin bədii və estetik tərbiyəsinin, elmi dünyagörüşünün zənginləşməsində böyük əhəmiyyətə malikdir. Bu vəzifələrin yerinə yetirilməsi məqsədilə muzeylərdə açıq dərslərin keçilməsi artıq ənənəyə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən, Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil olunur, məktəb-muzey şəbəkələri vasitəsilə onlayn dərslər keçilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, mərkəzi və yerli icra hakimiyyəti orqanları kollektivlərinin muzeylərə kollektiv gedişi təşkil olunur. Bu tədbirlər maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsi və təbliğ olunmasına daha geniş imkanlar açmışdır.

Bu gün muxtar respublikada fəaliyyət göstərən muzeylərdə 110 mindən artıq eksponat mühafizə olunur. Muzeylərin əsasnamələri daha da təkmilləşdirilmiş, eksponatlar haqqında məlumatlar Azərbaycan dili ilə yanaşı, xarici dillərdə də təqdim olunmuşdur. Hazırda muxtar respublikanın muzeylərində 300-dən çox elmi işçi çalışır. Son illər muzey işçilərinin Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülmələri onların əməyinə verilən yüksək qiymətin ifadəsidir.

Muzeylər keçmişimizi bu günə daşıyan, qoruyan, saxlayan, öyrənən və nümayiş etdirən maddi-mənəvi dəyərlər xəzinəsidir. Muzey şəbəkələrinin yaradılması mədəniyyətimizin ümumi yüksəlişini, milli şüurun inkişafını əks etdirməklə yanaşı, həm də muxtar respublikanın turizm potensialının artırılmasına xidmət edir. Eyni zamanda muzeylər elm, maarif müəssisəsi olmaqla, qədim keçmişlə bu günümüz arasında körpü rolunu oynayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Muzeylər Azərbaycan xalqının tarixini, böyük şəxsiyyətlərinin həyatlarını, yaradıcılıqlarını, fəaliyyətlərini özündə əks etdirir. Xalqın tarixi həm kitablarda yazılmaqla, həm də muzeylərdə qorunmaqla gələcək nəsillərə çatdırılır. Muzeylər bizim keçmişimizi özündə yaşadan, gələcəyə daşıyan yerlərdir".***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

*17 may Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günüdür*

# Muxtar respublikada informasiya texnologiyalarının tətbiqi və inkişafı diqqət mərkəzindədir

***Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 2006-cı il 26 mart tarixli qətnaməsinə əsasən, hər il mayın 17-si dünyada "Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü" kimi qeyd olunur.***

İnformasiya texnologiyalarının inkişafı sahəsində müəyyənləşdirilən dövlət siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir, informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən 82 dövlət təşkilatına və 9 idman federasiyasına elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. Dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə "Elektron hökumət" portalı yaradılmış, 34 dövlət orqanının xidmətləri portala inteqrasiya edilmişdir. "Elektron hökumət" portalı üzərindən rabitə, genişzolaqlı internet xidmət haqları, elektrik enerjisi və qaz haqlarının ödənilməsi təşkil edilmiş, istifadəçilərin portalda qeydiyyatdan keçməsi avtomatlaşdırılmışdır. Bununla yanaşı, Naxçıvan Şəhər Rabitə İdarəsində elektron imzanın sertifikat mərkəzi yaradılmış, mərkəz lazımi texniki avadanlıqlarla təmin edilmişdir.

Muxtar respublikanın yaşayış məntəqələri tamamilə telefonlaşdırılmış, bir kanal vasitəsilə telefon, internet və televiziya xidmətlərindən istifadəyə imkan verən Yeni Nəsil Telekommunikasiya sistemlərinin tətbiqinə başlanılmışdır. 2010-cu ilin may ayında Naxçıvan şəhərini, Babək qəsəbəsini, Nehrəm və Yarımca kəndlərini, 2012-ci ilin mart ayında Şərur və Sədərək rayonlarını, 2014-cü ilin fevral ayında isə Şahbuz və Babək rayonlarını əhatə edən 3-cü nəsil telekommunikasiya xidmətlərindən istifadəyə imkan verən Yeni Nəsil Telekommunikasiya avadanlıqları istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının inkişafı istiqamətində həyata keçirilən tədbirlər barədə demişdir: ***"Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. Muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur".***

Muxtar respublikada informasiya texnologiyalarının inkişafı istiqamətində həyata keçirilən tədbirlər poçt sistemini də əhatə etmişdir. Muxtar respublikada 122 poçt şöbə və bölməsi avtomatlaşdırılmış, yeni sistem üçün server qurulmuş, lazımi proqram təminatı ilə təchiz edilmişdir.

Keyfiyyətli televiziya yayımı, elektron medianın inkişafı informasiya cəmiyyətinin qarşıya qoyduğu əsas tələblərdəndir. Hazırda muxtar respublikanın bütün yaşayış məntəqələrində televiziya kanallarının rəqəmsal formatda yayımı təmin edilmiş, rəqəmli radio yayımına keçidlə bağlı texniki işlər başa çatdırılmışdır. Muxtar respublika ərazisində IP televiziyanın yayımı təşkil edilərək sakinlərə Yeni Nəsil Telekommunikasiya Sistemi üzərindən televiziya kanallarını izləmək və digər xidmətlərdən yararlanmaq imkanı yaradılmışdır. Bundan əlavə, Duzdağ Radio-Televiziya Verici Stansiyasında qurulan baş stansiya, 7 ədəd güclü rəqəmsal televiziya verici vasitəsilə 67 televiziya kanalı tamaşaçıların ixtiyarına verilmişdir. Bu sistemin qurulması nəticəsində televiziya yayımının DVB-T2 standartında HD olaraq təmin edilməsinə də imkan yaranmışdır. Hazırda Naxçıvan Dövlət Televiziyası HD formatda izləyicilərə təqdim olunur.

Yeni optik kabel magistrallarının tikintisi böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsində vacib şərtdir. Bu gün muxtar respublikada fiber-optik telekommunikasiya xətlərinin uzunluğu 1175,5 kilometrə çatdırılmış, mövcud telekommunikasiya şəbəkəsinin 94 faizi optik şəbəkəyə birləşdirilmişdir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, 2012-ci ilin avqust ayından etibarən Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrasına başlanmışdır. Həmçinin muxtar respublikanın daxili telekommunikasiya əlaqələrinin alternativliyinin təmin edilməsi məqsədilə dəmir yolu xətti ətrafı ilə ümumi uzunluğu 242 km olan Sədərək-Ordubad arası böyüktutumlu fiber-optik kabel magistral xəttinin tikintisi başa çatdırılmışdır.

Optik şəbəkənin genişlənməsi əhalinin internetdən istifadə imkanlarını da xeyli artırmışdır. Bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, muxtar respublikaya daxil olan internetin sürəti artırılmış, ümumtəhsil məktəblərində quraşdırılan kompüterlərin 84 faizi internetə qoşulmuş, internet xidmətlərinin tarifləri aşağı salınmışdır. Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 93 faizində genişzolaqlı, 83 faizində isə simsiz internet xidmətləri göstərilir. Kompüterdən istifadə edənlərin sayı 303 mindən, internetdən istifadə edənlərin sayı isə 353 mindən artıqdır.

Muxtar respublikada informasiya texnologiyalarının ayrı-ayrı sahələrdə də tətbiqinə diqqət yetirilir. Belə ki, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının, Naxçıvan Dövlət Universitetinin kitabxanasının bazalarında elektron kitabxana yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi və AMEA-nın Naxçıvan Bölməsi üçün isə elektron kitabxana və elektron arxiv sistemi istifadəyə verilmişdir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə qabiliyyəti məhdud olanlar üçün audiokitabxana, eşitmə məhdudiyyəti olanlar üçün elektron kitabxana yaradılmışdır. Distant təhsilin təşkili məqsədilə Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılmışdır. Bundan başqa, muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi üçün muzeylərin hamısına optik kabel çəkilmiş, lazımi proqram təminatı və infrastruktur qurulmuşdur.

İnformasiya cəmiyyətinin formalaşması prosesi mürəkkəb və çoxşaxəlidir. Odur ki, muxtar respublikada bundan sonra da informasiya texnologiyalarının inkişafı daim diqqət mərkəzində saxlanılacaq, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 392